# Yazıçı səmimiyyətindən doğulan yaşantılar...

**Bəzən hər hansı bir söz adamı barədə danışarkən ”vətənpərvər şairdir, yazıçıdır” deyirlər. Hər bir insan-vətəndaşın vətənpərvər, yudsevər olması təbii bir haldır. Ancaq, yazıçının torpaq, millətcanlı olması milli-mənəvi dəyərlərimizin vəsvində, tərənnüm və təbliğində vacib amildir.**

Tanınmış yazıçı-publisist, tədqiqatçı alim, istedadlı ədəbiyyatşünas, bütün ruhuyla folklorumuza bağlı olan Salatın Əhmədlinin ədəbi-bədii yaradıcılığının mayasını səmimiyyətdən yoğrulub, sözünü ürəklə, inamla deyə bilərik.

Şeirin, nəsrin, jurnalistika sənətinin və publisistikanın neçə-neçə növü, qolu və forması olduğu məlumdur. Fikri ifadə etmək, sənət əsəri yaratmaq üçün istedad başlıca meyar olsa da, yazıçının məramını byan etməsi üçün ədəbi janrlar hər vaxt zəhmətsevər ədəbiyyat insanına meydan açır.

Sözə-sənətə ürəklə ”könül verən”, yaradıcılıq duyğusu qanında çağlayan S.Əhmədli ədəbi növlərin hər birində öz yaşantılarını ədəbiyyatın mənəvi ”məhsul”una yüksək sənətkarlıqla çevirə bilən yazar kimi oxucu rəğbətini qazanmışdır.

S.Əhmədlinin bədii yaradıcılığında sənətin bütün formalarında; bayatılarında, hekayələrində, romnlarında, eləcə də ədəbiyyatşünaslıqda-elmi-bədii resenziyalarında və günün nəbzini tutan publisistikasında öz dəsti-xəttini, ədəbi üslubunu sevdirən sənətkarlarımızdandır.

Haqqında söhbət açdığımız S.Əhmədlinin sənətin bütün formalarında öz bədii-poetik rübabını ilhamla dilləndirən bir yazar olduğunu yuxarıda qeyd etmişik.

İndi isə bu zəhmətkeş xanımın - çəkdiyi əziyyətin bəhrəsinin şirinliyini üstün tutmasından danışaçağıq.

”Bir elatın dastanı” S.Əhmədlinin sayca neçənci kitabı olduğunu deyə bilmirəm. Lakin bu kitabın titulunda 1 kitab yazılması göstərir ki, bu sahədə toplanmış tədqiqat əsərlərinin ilkidir...

Kitabxanada aparılan tədqiqat hər hansı bir elin, elatın keçmişi, bu gününü nəsildən-nəsilə keçərək gələn tarixini həmin elatın sakinlərindən öyrənməkdən qat-qat asandır. Bu işdə hər bir sinədəftər baba-nənələrimizi, həmin elatın ziyalılarını danışdırmağa kökləmək də xeyli vaxt və zəhmət tələb edən bir xeyirxah missiyadır.

Tədqiqatçı-yazıçının oxuculara təqdim olunan ”Bir elatın dastanı” kitabı Şahbuz rayonunun qədim Güney Qışlaq kəndinin salınma tarixi, adət-ənənəsi, tanınmış simaları, kəndin müasir sakinlərinin dilindən yazıya alınması təkcə yazıçı borcu deyil, sözün əsl mənasında vətəndaş fədakarlığıdır.

Qədim tarixə malik, bəşəriyyətə onlarca duhalar bəxş edən Naxçıvanımızın - nəqşi cahanımızın və bu ulu -nuh yurdu məkanımızın bir parçası da Şahkbuz rayonunun Güney-Qışlaq kəndidir. Bu kəndin tarixi keçmişi haqqında elmi-bədii və publisistik bilgiləri toplayıb sistemləşdirmək kitab halında nəşr etdirmək, yurdun bir guşəsinə olan özvlad sevgisinin parlaq təzahürü deyilmi?!

Bu kitabda S.Əhmədlini - müəlif sözü, eləcə də yazıçının elm-sənət dostlarından filologiya üzrə fəsəfə doktoru E.Cabbarovun və Əməkdar jurnalist Flora Xəlilzadənin, qələm dostlarının zəhmətinə ürəklə xeyir-dua verdikləri yazılardan sonra, 11 bölmədən ibarətdir. Çox nəfis bir şəkildə, yüksək tərtibatla işıq üzü görmüş, çox böyük dəyərə malik olan bu kitab gələcək tədqiqatçıların əlindən tutacaq bir elmi, bədii və publisistik bilgi mənbəyidir. Heç şübhəsiz ki, 361 səhifəlik kitabda toplanmış yazıları şərh etmək bir məqalənin imkanında deyil. Ancaq, bədii-mənəvi tutumuna görə, bəzi vacib nüanslardan misallar gətirmək yerinə düşər...

Şahbuz rayonunun Güney-Qışlaq kəndinin etnoqrafik-coğrafi etüd bölməsində Akademik V.Baxşəliyevin kənddə olan qəbiristanlıqların yaşının biim eramızdan əvvəlki dövrlərə gdib çıxdığını tarixi faktlarla sübut etmişdir. Orta əsrlərdə bu kəndin sakinlərinin tayfa halında yaşamalarını qəbirüstü abidələr bir daha sübut edir. Kənd relyefinə görə ticarət və karvan yolundan uzaq olduğu üçün burada əhali dulusçuluq, misgərlik, dəmirçilik, keçəçilik, qalayçılıq sənətləri̇lə məşğul olmuşlar. Hazırda maldarlıq və əkinçiik işləri əhalinin əsas məşquliyyətidir. Bu qədim kəndin sakinləri də erməni bəlasını görmüş və hər vaxt bu mübarizəyə hazır olmuşdur. Kənddə erməni hücumu (XX əsrin əvvəllərində) zamanı hər dəfə canlı itki verilsə də, qadın, uşaq əsir verməmişlər. Kəndin ən xarakterik bir xüsusiyyəti də diqqəti cəlb edir. Belə ki, bu kəndin sakinləri heç vaxt erməni qızına - əslisinə aşiq olmamışlar...

Cəmi 2 səhifəlik bir yazıda S.Əhmədli kəndin bütöv bədii ponaramını verə bilməyi də, sözlə dil tapmağın, məsuiyyətlə yanaşmanın əyaniliyini göstəricisidir.

Belə yanaşma isə heç şübhəsiz ki, bədii ustalıq tələb edən elementlərdən biridir.

İkinci bölmə də çox uzun Deyil: - iki səhifə yarımlıq həcmində olan ”Yer-yurd odları” başlığı altında yerə, yurda, səngərə, bulağa, biçənəyə verilən adların kənd əhalisi tərəfindən ”pasportlaşmış” adlarıdır ki, bununla da kəndin hansı tərəfində nəyin olduğunu bildirmək üçün bu adların da böyük əhəmiyyəti olduğu bir faktdır.

”Kəndin yaranma tarixi haqqında eşitdiklərim” başlıqlı bölmədə kənd sakini Banu Həsənalı qızının dedikləri qələmə alınmışdır: Bani xanımın dediyinə görə, ağsaqqallar danışırmışlar ki, kənddə 5-6 tayfa yaşamış və bunların hərəsi bir bölgədən olmuşdur. Hər tərəfi sıx meşəlik olan bu yer, əvvəllər bəylərin, imkanlı adamların yaylaq yerləri olmuşdur. Bu yerin başqa adlarından biri də Rameşə - (meşəni ram etmək mənasındadır). Hurişin olmuşdur ki, bu da cənnət misallı təbiət yeri olduğu üçün, Hurinlər məskəni kimi yozulur. Kəndin



ilk sakinləri Sarı qayadan gəlmələr olub. Sarı qaya adlı yer Qarabağda, İran Azərbaycanında və Türkiyədə də var. Ancaq ən çox ehtimal olunan odur ki, gələnlər Qarabağ əsilli olublar. Naxçıvanın da Çəhri kəndinin əksər sakinləri - Qarabağlılar olduğu da tarixi mənbələrdə qeyd olunur. Əsasən isə tərəkəmə elatından olan Kəbirlilər (Pənah xanın qadın tərəfdən qohumları) Çəhridə indi də yaşamaqdadırlar.

Kənd sakinlərindən Qəzənfər İmiş oğlunun dediyinə görə bu kəndin ilk sakinlərindən biri də Məşədi Tağı tayfası olub. Bu tayfa Əhmədgildən başlayır. Əhmədin oğlanları Sadiq, Abbas Tağı Novruz olub.

Bu kəndin insanları milli adət-ənənəyə bağlı olublar. Kənddə sözə-sənətə böyük hörmət olduğundan kor Əbdürrəhman kişi Qurani-Kərimi və 30-a yaxın dastanı əzbər bilirmiş. Bu yerlərdə şairlərin yetişməsində Ulu Kərimin böyük təsiri olmuşdur. Ulu Kərim Şahbuz rayonun XIX əsr el ədəbiyyatının görkəmli nümayəndəsi olub. Bu kənddə folklorun ən çox yayılmış növləri dərviş mərsiyələri, dini mərsiyələr, bəy tərifi, hakştalar, gəlinə təriflər, cütcü mahnıları, ağılar, bayatılar - boyatılar olmuşdur.

Bütün bu qeyd etdiklərimiz S.Əhmədlinin bölmə kimi ayırdığı səhifələrdən götürülmüşdür. Heç şübhəsiz ki, bunları söyləyənləri yazıya almaq vaxt, dinləmək bacarığı və səbr tələb edir. Amma el-obaya böyük sevgi olan yerdə, bu mənəvi sərvətlərin toplanması müəllif bir xoş duyğular və mənəvi zövq mənbəyi olur...

”Sinəsi sözlə dolu xatirələri var elimin” bölməsində ölkədə tanınan neçə-neçə ziyalıdan söhbət açılır. Onlardan biri də Səfəralı Salman oğludur. Müəllif Güney-Qışlaq kəndinin tanınmış bir müəllim - ziyalı övladından hörmətlə söhbət açar, onun çox yüksək səviyyəli ziyalı olduğunu, Naxçıvan Dövlət Pdaqoji İnstitutunda çalışdığını, fakültə dükanı olduğu halda Rameşin kəndinə qayıtdığını və ömrünün sonuna kimi orta məktəbdə müəllim, sonradan direktor işlədiyi qeyd edilmişdir.

S.Əhmədli təbiətən çox qədirşünas bir insan, hər kəsin qiymətini yerində verən bir ziyalı - yazıçıdır. O, kitabının 35-ci səhifəsində qayınatası Məhəmməd Tağı oğlu haqqında fa bir səhifə yazı vermişdir. Bu yazıda Məhəmməd kişinin xeyirxah bir insan olduğunu, müharibə dövründə kolxoz sədri və başqa vəzifələri icra edərkən çox böyük xeyirxahlıqlar etdiyi qeyd olunur. Çoxlu sayda nağıllar, rəvayətlər, hikmətli sözlər bildiyini vurğulayır. Heç də təsadüfi deyildir ki, Məhəmməd kişinin oğlu, Tağı Məhəmmədoğlu - respublikada tanınmış, öz işini yüksək səviyyədə görən bir məmur olsa da, bir lirik şair kimi də tanınmışdır.

Salatın Əhmədli torpaq, millətcanl bir yazar olmaqla, həm də çox qohumcanlı bir insandır. O, həyat yoldaş Tağı Məhəmmədoğlunun doğulduğu kəndin sakinlərinə, sadə zəhmət adamlarına, eləcə də ziyalılarına çox böyük hörmətlə, ehtiramla yanaşır. Və bu dəyərli tədqiqat kitabında heç bir ögeylik-doğmalıq etmədən ”Anlarda yaşayan ömür” adlı son başlıqda kənd ağsaqqallarının, ağbirçəklərinin, yerlərin təbiət lövhələrinin 48 səhifəlik şəklini vermişdir.

O, Qazax mahalında dünyaya göz açan S.Əhmədi, şairlər vətəninin bu nəcib övladı öz hekayə və romanlarında Qarabağının dərdini qadın-ana-yazıçı ürəyi ilə, yaralı torpağna məlhəm ola biləcək könül çırpıntılarını həssaslıqla, səmimiyyətlə qələmə alır. Və bütün bununla bərabər həyat yoldaşı, ömür-gün sirdaşı, qələm dostu Tağı müəllimi də yetirmiş Quzey-Qışlaq kəndinə də eyni məhəbbətlə yanaşır.

**...Görkəmli yazıçı-publisist S.Əhmədli bu dəyərli toplunu qayınanası Qəndab Süleyman qızının əziz xatirəsinə həsr etməsi, təkcə fəlsəfə elmlər doktoru olduğunu deyil, həm də ”insanşünaslıq elmləri doktoru” olduğunu səmimiyyətlə təsdiqləyir və bir könül hüznü ilə kövrək anlar yaşadan duyğuların sahibi olduğuna imza atır.**

**Nazim**


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**